# (HƏDIS (3 10

<"xml encoding="UTF-8?>

(HƏDIS (3 10

Hədis 21: Həzrət Məhəmməd (s) buyurur: “Xalqa möhtac olmayın və onlardan bir diş çöpü belə ”.istəməyin

* * *

”.Hədis 22: Həzrət Məhəmməd (s) buyurur: “Xalqın ən şücaətlisi öz nəfsinə qalib gələn şəxsdir

* * *

Hədis 23: Həzrət Məhəmməd (s) buyurur: “Beşikdən qəbrədək elm axtarışında (öyrənməkdə) ”.olun

* * *

Hədis 24: Həzrət Məhəmməd (s) buyurur: “Mö`minin çətinliyi hamıdan çoxdur, çünki o həm ”.dünya, həm də axirət işləri ilə məşğul olmalıdır

* * *

”.Hədis 25: Həzrət Məhəmməd (s) buyurur: “Az günah etsən, ölüm sənə asan olar

* * *

Hədis 26: Həzrət Məhəmməd (s) buyurur: “Diş fırçalamaq barəsində mənə o qədər göstəriş ”.verdilər ki, onun vacib olacağından qorxdum

* * *

Hədis 27: Həzrət Məhəmməd (s) buyurur: “Dünyada hamıdan tox olan, qiyamətdə hamıdan ac ”.olacaq

* * *

”.Hədis 28: Həzrət Məhəmməd (s) buyurur: “Sədəqə var-dövləti artırar

* * *

Hədis 29: Həzrət Məhəmməd (s) buyurur: “Allah-təala ata və anaya yaxşılıq edən insanın ”.ömrünü uzadar

* * *

Hədis 30: Həzrət Məhəmməd (s) buyurur: “Allah-təala bütün danışanların dilinə nəzarətçidir. ”.Bəndə Allahdan qorxmalı və nə danışdığına fikir verməlidir